Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 543

Bakı şəhəri, 26 dekabr 2024-cü il

QƏRAR

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 488 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət məktəbəqədər təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 488 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1823 (Cild I) ilə təsdiq edilmiş "Dövlət məktəbəqədər təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 3.3-cü bəndə "yerli bölmələri" sözlərindən sonra "və Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi" sözləri əlavə edilsin.

2. 4.1-ci bəndə "Agentliyinə" sözündən sonra "və Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinə" sözləri əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

---

Azərbaycan.- 2024.- 27 dekabr (№ 287).- S.6.